

# Güneydən səslər...

"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## XOSROV BARIŞAN



1983-cü ildə Təbrizdə dünyaya göz açıb. İlk və orta təhsilini Təbrizdə alıb. Sonra Şəbistər Universitetinin aqrar bölmə mühəndisliyi bölümünə qəbul olunub. Uşaqlıqdan şeirə və kitab oxumağa maraqlı olub. İlk şeirlərini orta məktəbdə oxuyarkən yazmağa başlayıb. 19 yaşlarında Təbrizdə yaradılan ədəbi dərnəkdə iştirak etməyə başlayıb. "Aşina" dərgisinin təşkilatçılarından biri olub. İlk şeir toplusu ("Yağış saniyəsi") kitabı da elə bu dönəmdə nəşr edilib. Həmin illərdə Təbrizdə keçirilən Qızıl Alma şeir yarışmasında mükafata layiq görülüb. 2013-cü ildə Təbriz ədəbiyyat festivalında "Sən olanda, olmayanda" adlı şeiri mükafat alıb.

Xosrov Barışan şeirdən əlavə, hekayə yazmağa da maraqlıdır. Şeir və yazıları Azərbaycanın müxtəlif dərgi və saytlarında dəfələrcə yayımlanıb. Ondan artıq kitabın müəllifidir.

### Ah…

*Bir göyərçin olub uçsam gözlərində,*
*Göy utansa,*
*Yağış yağsa,*
*Yalnız islansa şairliyimin başmaqları,*
*Kəlmələrin gəlişində sürünsəm, sürünsəm…*
*Ürəyim ağzıma gəlsə,*
*Ağlamadan ölümdən qaça bilsəm,*
*Şair olardım mən də.*
*Bu divar, divar deyil,*
*Məni səndən ayırmasa.*
*Bu torpaq torpaq deyil,*
*Məni səndə quylamasa.*
*Bu gediş, gediş deyil,*
*Şeir olub yazılmasa.*
*Şeir deyil ki, bu yazdığım,*
*Söz doğrayıram nisgil doğramacına.*
*"Hər kəs sənə ulduz deyə*
*özüm sənə ay demişəm".*
*Bir qurd olub ulayıram…*

## DUMAN ƏRDƏM



1983-cü ildə Təbrizdə anadan olub. Şeir, hekayə və teatr tamaşaları üçün pyesler yazmaqla bərabər, həm də romanlar müəllifidir. Güney Azərbaycanın gənc yazarları arasında ən çox oxunan və öncül imzalardan biri kimi tanınır. "Öp ölümünü", "Kola qutusunda it ölüsü" və "Sonuncu sufi" adlı şeir kitablarının müəllifidir.

Yaradıcılıq üslubundakı fərqlilik onun seçkin yazar kimi tanınmasına səbəb olub. Onu bəzən anti-ədəbiyyatçı adlandırsalar da, yazarın özü bu fikirlərlə razı deyil. Şair şeirlərində bir çox hallarda öz fikirlərini sətiraltı mənalar və şərq fəlsəfəsindən gəlmə rəmzlərlə ifadə edir.

Qadın səsi çiçək açır
Buludlar damlardakı boruların tənəffüsündən
Göy üzünə qaçqındılar…
Göylərdən qadın naləsi yağsın,
Duaya çıxır şeyxlər…
Qadın səsi çiçək açır,
Buğda bitir
Çörəklənir əllərimizin daş yazılarında…

Esmira Fuad